Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi
birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 8

# TARİX

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1. Teymuri hökmdarı Əbu Səidin fəaliyyətinə aiddir:**

a. Cahanşahla barışıq müqaviləsi imzalanması

b. Həsən padşahla müharibə aparması

c. Qızıl Ordu dövlətinə yürüş etməsi

d. Naxçıvan və Xorasanda üsyanları yatırması

A) a, b

B) b, c

C) c, d

D) a, c

E) b, d

**2. Bərdə şəhərinin VIII-X əsrlər tarixi üçün səciyyəvidir:**

1. Əhalisi xəlifə tərəfindən vergilərdən azad edilmişdi
2. Ərəb əmirliyinin mərkəzinə çevrilmişdi
3. Ərazisində Şəddadilər tərəfindən müstəqil əmirlik yaradılmışdı
4. Şirvanşahlar dövlətinə birləşdirilmişdi
5. Slavyanların hücumuna məruz qalmışdı

A) 1, 3, 5

B) 2, 3, 4

C) 3, 4, 5

D) 1, 2, 4

E) 2, 4, 5

**3. İrəvan xanlığının asılı vəziyyətə düşdüyü dövlətlərdən *deyil:***

1. Gəncə xanlığı
2. Xoy xanlığı
3. Quba xanlığı
4. Gürcü çarlığı
5. Qarabağ xanlığı

A) 1, 3

B) 2, 4

C) 3, 5

D) 1, 2

E) 4, 5

**4. 1612-ci il İstanbul müqaviləsinin pozulmasına səbəb oldu:**

A) Şah I Abbasın Şirvana və Dərbəndə yürüşləri

B) Osmanlı ordusunun İrəvana hücum etməsi

C) Səfəvi dövlətinin İngiltərə ilə müqavilə imzalaması

D) Hacı Davudun Osmanlıdan kömək istəməsi

E) Cəlalilərin Səfəvi dövlətinə qarşı üsyan qaldırması

**5. Albaniyanın V əsrin II yarısı və VI əsrin əvvəlləri tarixi üçün səciyyəvidir:**

A) Ərazisinə kimmer və iskitlərin köç etməsi

B) Sasanilər dövlətinə hərbi yardım göstərilməsi

C) Sasani mərzbanları tərəfindən idarə olunmağa başlanması

D) Xəzərlərin qarətçi yürüşlərinə məruz qalması

E) Sasanilər tərəfindən əhalinin siyahıya alınması

**6. İbtidai icma quruluşunun son dövrlərində əhalinin təbəqələşməsini sübut edir:**

A) Dəmirdən geniş istifadə

B) Üçüncü əmək bölgüsü

C) Kurqanlar

D) Qayaüstü təsvirlər

E) İri tayfa ittifaqları

**7. Hadisə-nəticə əlaqəsini müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Hammurapi qanunlarının qəbul edilməsi | Babil dövlətində qulların öldürül-məsinin qada-ğan edilməsi |
| B) | Teoman tanhunun nizami ordu qurması | Hunların bütün Çin ərazisini tabe etməsi |
| C) | Qrakx qardaşlarının islahat keçirməsi | Romada kolonlar və daxmalı qulların meydana gəlməsi |
| D) | Periklin Afinada strateq seçilməsi | Yoxsul vətəndaşların bütün dövlət vəzifələrini tutmaq hüququ qazanması |
| E) | I Daranın inzibati islahatlar keçirməsi | Əhəməni dövlə-tində qızıl və gümüş pulların kəsilməyə başlanması |

**8. İtaliya şəhər dövlətlərinin Şərqlə ticarətdə üstünlüyünə son qoydu:**

A) Şəhər dövlətlərinin daxili müharibələr nəticəsində zəifləməsi

B) Osmanlı dövlətinin Konstantinopolu fəth etməsi

C) Xaçlı yürüşlərinin qarşısının müsəlmanlar tərəfindən alınması

D) XVI əsrin sonlarında ingilislərin İtaliya donanmasını məğlub etməsi

E) Böyük Coğrafi kəşflərin həyata keçirilməsi

**9. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Maratxların Panipat döyüşündə məğlub olması
2. Mancur sülaləsinin Çində hakimiyyətə gəlməsi
3. Yassı sülhünün imzalanması
4. Kokand xanlığının meydana gəlməsi

A) 3, 4, 1, 2

B) 4, 3, 1, 2

C) 2, 1, 3, 4

D) 2, 4, 1, 3

E) 1, 2, 3, 4

**10. Əmir Teymur və Nadir şah arasındakı ümumi cəhəti müəyyən edin:**

A) Çin ərazisinə hərbi yürüş təşkil edilməsi

B) Qızıl Ordu dövləti ilə müharibə aparılması

C) Şirvanşahlar dövlətinin tabe edilməsi

D) Osmanlı dövləti ilə sülh müqaviləsinin imzalanması

E) Dehli şəhərinin ələ keçirilməsi

**11. Xəritə-sxemdə XIV əsrin 60-cı illərində İngiltərə ilə sülh müqaviləsi imzalamış dövlətin ərazisini müəyyən edin:**



A) 1

B) 2

C) 3

D) 4

E) 5

**12. Erməni işğalından xronoloji olaraq son azad olunmuş rayon mərkəzidir:**

A) Qubadlı

B) Ağdam

C) Füzuli

D) Laçın

E) Zəngilan

**13. Təbrizdə "*Göy Məscid*" və Bakıda "*Şirvanşahlar sarayı*" arasında oxşar cəhət:**

A) Monqolların yürüşü zamanı dağıdılmaları.

B) İntibah dövrünə aid olmaları.

C) XVI əsrə aid olmaları.

D) Müdafiə xarakterli memarlıq abidələri olmaları.

E) Eyni əsrdə inşa edilmələri.

**14. Mannanın Messi, Zamua, Gilzan və Gizilbunda vilayətləri:**

A) Deyokun rəhbərliyi ilə hökmdara qarşı ittifaq yaratmışdılar

B) Assurlara "qoşqu atları"nı vergi verirdilər

C) Lullubilərin vətəni idi

D) Təsərrüfatda dəvədən istifadə geniş yayılmışdı

E) Əsasən taxılçılıqla məşğul idilər

**15. Alan tayfaları və iskitlər üçün səciyyəvidir:**

A) Azərbaycan ərazisinə şimaldan daxil olmaları

B) I-III əsrlərdə Albaniyaya hücum etmələri

C) Manna dövlətinin müttəfiqi olmaları

D) Assuriya ilə mübarizə aparmaları

E) Atropatenaya yürüş etmələri

**16. Aşağıda qeyd edilənlərin aid olduğu hökmdarı müəyyən edin:**

- ***Yeni alban yazısı yaradıldı***
- ***Alban uşaqları təhsilə cəlb olundu***
- ***Dini kitablar alban dilinə tərcümə edilməyə başlandı***

A) Asuagen

B) III Mömin Vaçaqan

C) II Vaçe

D) Cavanşir

E) Urnayr

**17. Əhəmənilər dövlətinin mövcudluğu dövrünə aid deyil:**

A) Periklin strateq seçilməsi

B) Qaumata üsyanının baş verməsi

C) Selevkilər dövlətinin yaranması

D) Yunanıstanda şəhər-dövlətlərin mövcud olması

E) Yunan şəhərlərində açıq hava teatr salonlarının tikilməsi

**18. Monqolların I yürüşü zamanı üçüncü həmlədən sonra ələ keçirilən şəhər:**

A) Ərədbil

B) Beyləqan

C) Təbriz

D) Şamaxı

E) Marağa

**19. Burqundiya, Marsel və Bretan vilayətləri Fransaya birləşdirildi:**

A) XI Lüdoviqin imzaladığı sülh müqaviləsi ilə

B) İgid Karlın məğlub edilməsi nəticəsində

C) Fransanın mərkəzləşdirilmiş dövlətə çevrilməsi nəticəsində

D) Yüzillik müharibənin başlanması ilə

E) IV Gözəl Filippin Roma papası ilə mübarizədə qələbəsi nəticəsində

**20. Mətni oxuyun və kimin haqqında olduğunu müəyyən edin:**

**“*… son dərəcə cəsur və qorxmaz insan idi. O, dövlətin idarəsini tamamilə öz əlinə almağa başladı. … şiə-sünni məzhəbləri arasındakı ixtilafa son qoymaq istəyirdi, lakin onun sui-qəsd nəticəsində öldürülməsi bu tədbirləri yarımçıq qoydu*”**

A) Nadir xan

B) I Təhmasib

C) Məhəmməd Xudabəndə

D) Həmzə Mirzə

E) II İsmayıl

**21. XVI əsrin sonu – XVII əsrin əvvəllərində Osmanlı İmperiyası tərəfindən işğal edilmiş Azərbaycan ərazilərində baş vermiş xalq çıxışlarının səbəblərindən deyil:**

A) Məmurların qəddarlığı

B) Vergilərin artırılması

C) I Təhmasibin vəfat etməsi

D) Dəhşətli dağıntılar

E) Aclıq, soyğunçuluq

**22. Səfəvi hökmdarlarına dair ardıcıllığı tamamlayın:**

**I Səfi - ? - ? - Sultan Hüseyn**

A) Süleyman, II Təhmasib

B) I Abbas, II Abbas

C) II İsmayıl, Məhəmməd Xudabəndə

D) Süleyman, II Abbas

E) II Abbas, Süleyman

**23. Avropada katolik kilsəsinin qüdrətinin sarsılmasına səbəb oldu:**

A) Yezuitlər ordeni

B) İndulgensiya

C) İnkvizisiya

D) Reformasiya

E) “Müqəddəs Varfolomey gecəsi”

**24. Böyük Moğol dövlətində soyurqal:**

A) Sufi şeyxləri və müsəlman ruhanilərinə məxsus idi

B) Hərbi xidmət müqabilində verilir və irsən keçirdi

C) Hind knyazlarının şəxsi torpaqları idi

D) Dövlət torpaq fonduna daxil idi

E) Xidmət müqabilində verilir və şərti xarakter daşıyırdı

**25. XVIII əsrin sonlarında Çinin vassalı olmuş ərazilərdən deyil:**

A) Birma

B) Koreya

C) Vyetnam

D) Cunqariya

E) Nepal